# Gəncədə Türkiyə Cümhuriyyətinin yaranmasının 99-cu ildönümü qeyd olunub



**Gəncə şəhərində Türkiyə Cümhuriyyətinin elan olunmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Gəncə şəhərinin, Samux və Göygöl rayonlarının icra hakimiyyəti başçıları, Türkiyənin və Gürcüstanın Gəncədəki Baş konsulları, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Tədbir Türkiyə Cümhuriyyətinin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və hər iki dövlətin himnlərinin səsləndirilməsi ilə başlayıb.

Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 99-cu ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubu oxuyub. Baş konsul öz çıxışında türk xalqının istiqlal mübarizəsindən, Türkiyə Cümhuriyyətinin bugünkü inkişaf və tərəqqisindən danışıb, Azərbaycan və Türkiyə arasında olan tarixi dostluq, qardaşlıq münasibətlərindən söz açıb. O qeyd edib ki, Türkiyə və Azərbaycan arasında olan birliyin hədəfində sülh, sabitlik, təhlükəsizlik və rifah dayanır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Türkiyə Cümhuriyyətinin elan edilməsinin 99-cu ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş türk xalqını təbrik edib, qardaş ölkəyə davamlı sülh, firavanlıq, yeni nailiyyətlər və çiçəklənmə arzulayıb. Niyazi Bayramov qeyd edib ki, ötən dövr ərzində Türkiyə böyük və şərəfli yüksəliş yolu keçib. Bu gün Türkiyə dünyanın siyasi xəritəsində mühüm yer tutur. Ölkələrimiz arasındakı əlaqələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq və dostluq münasibətləri əsasında günü-gündən daha da inkişaf edir.



Türkiyə Cümhuriyyətinin elan edilməsinin 99-cu ildönümünə həsr olunan videoçarx nümayiş etdirilib və tədbirin sonunda konsert proqramı, ziyafət təşkil olunub.

**Hamlet QASIMOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**